**SƏNƏTŞÜNASLIQ ART CRITICISM ИСКУССТВОВЕДЕНИЕ**

DOI: 10.36719/AEM/2007-2019/49/124-126

**Nərmin Oqtay qızı Kərimli**
ulkerisva@mail.ru

# ƏMƏKDAR İNCƏSƏNƏT XADİMİ ƏBDÜLXALIQ RZAQULİYEVİN YARADICILIĞINDA ƏMƏK MÖVZUSU

***Açar sözlər:*** *rəssam, Əbdülxalıq, kənd mövzusu, əmək, kolxoz həyatı, milli boyakarlıq, rəng çalarları*
***Key words:*** *artist, Abdulkhalyg, rural theme, labor, collective farm life, national painting, color shades*
***Ключевые слова:*** *художник, Абдулхалыг, деревенская тема, труд, колхозная жизнь, национальная живопись, цветовые оттенки*

Azərbaycan təsviri sənətinin parlaq səhifələrindən biri olan XX əsr milli təsviri sənətin xalq ənənələrinin müxtəlif çalarları, dünya mədəniyyətinin nailiyyətləri üzərində inkişaf tapmasına əsaslı şəkildə təsir göstərdi. Təsviri sənətin yeni yaradıcılıq meyarları əsasında istiqamət götürməsi özünəməxsus yaradıcılıq xüsusiyyətləri ilə fərqlənən bir sıra istedadlı rəssamların yetişməsi ilə müşayiət olunmağa başladı. Əməkdar incəsənət xadimi Əbdül Xalıqın adı onların içərisində aparıcı yerlərdən birini tutur. O, müasir Azərbaycan təsviri sənətinin formalaşmasında xüsusi xidməti olan sənətkarlardandır.

Rəssamın yaradıcılığı vətənimizdən uzaqlarda, bir sıra xarici ölkələrdə, o cümlədən Gürcüstan, Moldova, Litva, Latviya, Çexoslovakiya, Misir, Suriya, Livan və digər ölkələrdə nümayiş olunmuşdur. Onun əsərləri hal-hazırda Bakı, Moskva, İstanbul muzeylərində və şəxsi kolleksiyalarda saxlanılmaqdadır.

Əbdül Xalıqın yaradıcılığı mövzu və janr rəngarəngliyi, fərdi üslub və metodları ilə seçilir. O, daim yeni bədii təsvir vasitələri axtarır, yeniliyə can atır, ifadə tərzi ilə diqqəti cəlb edir. Onun məişət, natürmort, mənzərə və portret janrında yaratdığı əsərlər zənginliyi ilə yadda qalır. Obrazlarını yaratdığı şəxsiyyətlərin həyat və məişətinə, dünyagörüşünə, düşüncə tərzinə özünəməxsus baxışı Əbdül Xalıqın əsərlərinin dəyərini artırır, bu əsərləri seyr edən tamaşaçının ürəyində dərin izlər buraxır. O, keçmiş bədii irsin ən gözəl ənənələrinə və realist sənətin mütərəqqi nailiyyətlərinə əsaslanaraq, müxtəlif janr, mövzu, üslub seçimi ilə fərqlənən yüksək sənət nümunələri yaratmışdır. Fərdi qabiliyyəti və istedadı, məqsədyönlü axtarışları, özünəməxsus emosional və orijinal təsvir vasitələri Əbdül Xalıqın, Azərbaycan incəsənət tarixində xüsusi yer tutan, çoxsaylı əsərlər yaratmasına gətirib çıxarmışdır.

Əbdül Xalıqın yaradıcılığı Azərbaycan milli incəsənətində özünəməxsus bədii fenomen olub və fenomen kimi qalmaqda davam etməkdədir.

1921-ci ildə anadan olmuş və XX əsrin 90-cı illərinə kimi öz yaradıcılıq fəaliyyətini davam etdirməkdə olan bu istedadlı rəssamın yaradıcılıq irsi bütün XX əsrin Azərbaycan realist boyakarlığının formalaşıb inkişaf etməsinə mühüm və həlledici təsir göstərmişdir.

Əbdül Xalıqın yaradıcılığının kəsb etdiyi rol və mənanı milli boyakarlıq və Azərbaycan incəsənəti tarixində dəyərləndirmək çox çətindir. O Əzim Əzimzadə boyakarlıq məktəbinin (indiki ARA nəzdində İncəsənət Kolleci) erkən yetirmələrindən biri olmuş və özünün yaradıcılıq fəaliyyətinin başlanğıcında yeni rəng-plastik həllərin ərsəyə gətirilməsinin eksperimental axtarışı ilə məşğul olmağa başlayır, hansılara ki müasir dövrdə də geniş şəkildə müraciət olunmaqdadır.

Öz zamanının bir çox digər gənc rəssamları ilə birgə Əbdül Xalıqın də özündə milli boyakarlıq ənənələrini və müasir Qərbi Avropa boyakarlığının bədii-texniki nailiyyətlərini birləşdirən milli məktəbinin və boyakarlıq üslubunun həlli üzərində qızğın yaradıcılıq axtarışları və fəaliyyəti aparmışdır.

Erkən yaradıcılıq fəaliyyətinə rəssam XX əsrin 40-cı illərində başlamış və özünün əməksevərliyi və məqsədyönlüyü sahəsində o, artıq bu illərdə qarşılaşdığı və rastlaşdığı yaradıcılıq və həyat çətinliklərinin öhdəsindən uğurla gələ bilir. Artıq XX əsrin 60-cı illərindən başlayaraq Əbdül Xalıq bir professional rəssam kimi formalaşmağa başlayır və cəmiyyətdə böyük uğur və nüfuz qazanır.

Əbdül Xalıq müasir realistik boyakarlığı daha da inkişaf etdirən və onu kamillik səviyyəsinə çatdıran istedadlı Azərbaycan boyakarlarından biri hesab olunur. O boyakarlığın bir çox janrlarına müraciət etmiş və onların hər birində mühüm uğurlar əldə etməyə və qazanmağa müvəffəq olmuşdur.

Rəssamın müxtəlif janrlarda ərsəyə gətirdiyi dəzgah boyakarlıq nümunələri əksər halda humanizm, lirika, zəriflik, incəlik, canlılıq və həyatilik hissi ilə aşılanıb. Əbdül Xalıqın boyakarlıq əsərləri sadə, lakin çox məzmunludur. Hətta öz əsərlərində bir neçə lokal rəngə müraciət etməklə, rəssam müasir həyat ilə bağlı əsərlər yaratmağa müvəffəq olur. Onun əsərlərinin baş qəhrəmanları onun müasirləridir. Onlar içərisində adi

zəhmətkeşlərə, alimlərə, rəssamlara və s. təsadüf olunur. Rəssamın ərsəyə gətirdiyi, lirika ilə aşılanmış mənzərə əsərləri doğma Vətənə qarşı məhəbbət hissi ilə haşılanıb. Əbdül Xalıqın dəzgah boyakarlığı sahəsində yaratdığı çoxsaylı əsərlərinə xas olan əksər xüsusiyyətlər öz dolğun ifasını həmçinin onun fərqli dövrlərdə ərsəyə gətirdiyi monumental dekorativ aydın nəzərə çarpır. Bu baxımdan Babəkə həsr olunmuş «Xalq qəhrəmanı» əsəri çox dəyərlidir. Əsərdə çoxlu obrazlar var və onların hər biri sanki diridir və bu dirilik əsərin dinamikliyini artıran başlıca cəhətdir. Digər

Rəssamın dönə-dönə müraciət etdiyi mövzulardan biri kənd mövzusudur. Hələ 1940-cı ildə 20 yaşlı gənc rəssam kənd mövzusuna həsr edilmiş süjetli "Kolxozda bayram" tablosu tamaşaçı diqqətini cəlb etmiş və bədii məkanda yaddaqalan iz qoymuşdur. Gənc rəssamın bu əsəri, müəllifin həyatı realist boyalarla canlandırmağa meyl göstərdiyini sübut edirdi. Bu əsərdə rəssam naturanın təhrif olunmasına yol verməyən bədii təsvir vasitələrinə yiyələnməyə nail olmuşdur.

Fiqurların yerləşdirilməsində əsərin məzmunu qabarıq ifadə etmək məqsədi əsas tutulmuşdur. Açıq havada cərəyan edən bu səhnə havanın, mühitin rəng münasibətlərini düzgün tapmaq kimi mürəkkəb professional çətinliklərlə əlaqədar idi. Müəllifin kolorit, yəni rənglərin vəhdətini və ahəngdarlığını əldə etmək sahəsində apardığı ilk axtarışlar müsbət nəticələr verirdi.

Gənc rəssamın kompozisiyanın, perspektivin bu kimi mürəkkəb qanunlarına bələd olması artıq onun gələcək sənətkarlığından xəbər verirdi. Ümumiyyətlə, bu xüsusiyyət gənc rəssamın erkən yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdən biridir. Bu kimi cəhətləri, rəssamın məhz həmin dövrdə yaratdığı digər əsərlərdə də müşahidə etmək mümkündür.

Eyni zamanda göstərilməlidir ki, artıq bu işlərdə, Əbdül Xalıqın özünəməxsus manerası, sərbəst, yüngül, sanki improvizə xarakterli bu əsərlərdə rəngin və işığın poetikasının çatdırılmasına cəhd göstərilməsi, quru və “doğru” rəsmin ziyanına həll edilirdi.

Əməkdar İncəsənət xadimi Əbdül Xalıqın müharibədən sonra 1946-cı ildə təşkil olunan ilk “Payız sərgisi”ndə nümayiş etdirdiyi "Mənzərə” və "Bazar” lövhələrində gerçəkliyə özünəməxsus fərqli münasibət ifadə etmək potensialına malik olduğunu sərgilədi.

1950-ci illərin əvvəllərində kollektiv və ya "briqada" üsulu geniş tematik kətan yaratmaq metodu müsbət və mənfi tərəfləri olan Sovet rəssamlarının təcrübəsində təşviq olunurdu. Müsbət hal, ilk növbədə, müxtəlif güclü sənətkarların yaradıcı cəmiyyətinin bəzən əhəmiyyətli ideoloji və bədii vəzifələrin qoyulmasına və uğurla həll edilməsinə kömək etməsi idi. Epik kətanlar yaranır. Mənfi hal kimi, bu metodla qaçılmaz olan yaradıcı şəxslərin yaradıcı səviyyələşdirilməsi idi.

Azərbaycanda rəssamların kollektiv iş üsulu ümumiyyətlə yaxşı nəticələr verdi. Belə tematik rəsmlərdən biri "Pambığın dövlətə təhvil verilməsi" (1951) – rəssamlar B. Əliyev, Əbdülxalıq və A.Zarubinin birgə əsəridir. Kətan Azərbaycan kolxozçularının qəhrəmanlıq işlərinə həsr edilmişdir. Əsərdə müasir Azərbaycan kəndinin əmək gününü təsvir edir: gənc kolxozçular pambıq tədarük məntəqəsində gündəlik işlərlə məşğuldurlar. "Ağ qızıl" dağları ilə əhatə olunmuş meydançada sevinc hökm sürür, iş qaynayır. Gənc kolxozçuların gündən qaralmış üzlərində və əllərindəki tunc rəng, qızların rəngarəng paltarı, günəşin və havanın bolluğu, nəhayət, tipik bir Azərbaycan mənzərəsi – bütün bunlar milli koloriti vurğulayır, mənzərəyə həyatsevərlik bəxş edir. Şəkildəki personajlar arasında azərbaycanlılar iki məşhur pambıq ustasını - Sosialist Əməyi Qəhrəmanları Sürəyyə Kərimova və Turab Məmmədovu tanımaq olar. Şəklin məzmununa uyğun olan rəsm əsərinin açıq rəngləri sevinc əhval-ruhiyyəsini artırır. Rəsm işinin uğuru böyük kətanların əhəmiyyətli bir hissəsinin B.Əliyev, Əbdülxalıq və Ə.Zarubin tərəfindən Ağdam rayonunun pambıq tarlalarında təbiətdən rənglənməsi ilə əvvəlcədən müəyyən edilmişdir. Şəklin əsas çatışmazlığı, içində aydın bir semantik mərkəzin olmamasıdır. Şəkildəki hər bir personaj qrupu bir süjet hərəkəti ilə birləşir. Ancaq bunların hamısı kompozisiya baxımından bağlıdır. Ön planda təsvir olunan iki kolxozçu qadın istisna olmaqla, şəkildəki personajların çoxu parlaq obrazlı xarakter almışdır. Lakin bütün bu çatışmazlıqlarla yanaşı “Pambığın dövlətə təhvil verilməsi” əmək mövzusundakı ən əhəmiyyətli rəsmlərdən biridir. Rəssamın janr rəsmlərinin geniş tanınmasına, ona xas çatışmazlıqlar – hekayə xəttinin qeyri-müəyyənliyi, obraz xüsusiyyətlərinin səthi olması mane oldu.

Əbdülxalıqın "Ağ Qızıl" (1952-1953) rəsm əsəri də onun "Pambığı dövlətə təhvil verilməsi" rəsminin həllini əsasən təkrarlayan bu cür çatışmazlıqlardan əziyyət çəkirdi. Buna baxmayaraq, bu əsər təbiətin rəng birləşmələrinin zənginliyini qeyd etməyi bacaran bir rəssam kimi qabiliyyətini ortaya qoydu.

Əbdül Xalıqın kolxoz həyatına həsr etdiyi bir sıra əsərləri arasında “Traktorçunun nəğməsi” (1957), “Qurultay ərəfəsində hesabat” (1961) lövhələri xüsusilə müvəffəqiyyətlidir. Bir tərəfdən kənd adamlarının yeni simasını, digər tərəfdən səfalı təbiət mənzərələrini canlandıran bu əsərdə müəllifin sərbəstiş üsulu və rəng qavrayışı gözə çarpır. Bu tablolarında həm də rəssamın təsirli və əhatəli kompozisiya yaratmaq potensialını sərgilədi. Hər iki əsərin məna-məzmun tutumunda zamanın tələbinə müvafiq hakim ideologiyaya

müəyyən bağlılıq mövcud olsa da, əslində, onlar həm də məşhur "Başlıcası nəyi yox, onu necə çəkməkdir" deyiminə layiqli cavab idi. Bu mənada həyat və yaradıcılığı bilavasitə sovet dönəminə təsadüf edən rəssamın əsərlərində nonkonformistlik olmasa da, yaratdıqları realizmin estetik coğrafiyasını duyulası dərəcədə genişləndirmək istiqamətində yaddaqalan addımlar olmuşlar. Odur ki, onun altmışıncı illər yaradıcılığını əhatə edən əmək mövzulu "Kolxozçu Sevil Qazıyeva", "Kolxoz həyəti", "Kolxozçu qadın", "Balıqçılar", "Əmək meydanında", "Lənkəran balıqçıları" və "Məhsul bayramı" tabloları bu gün də tamaşaçılara estetik zövq verməkdədir.

Əbdül Xalıq yaradıcılığının sərhədləri insanı valeh edir. Rəssam tərəfindən yaradılan çoxsaylı əsərlər onun adını əbədiləşdirərək milli boyakarlığın istedadlı və peşəkar sənətkarlarından biri olmaq zirvəsinə kimi ucaldıb. Rəssam-sənətkarın əsərləri hazırda Milli muzey və qalereyalarla yanaşı həmçinin bir çox xarici ölkələrin muzey və qalereyalarında, o cümlədən şəxsi toplu və kolleksiyalarında saxlanılır.

Rəssamın bütün yaradıcılığı boyu formalaşdırdığı rəngkarlıq sisteminin həyatın, təbiətin canlılığına inam, onun lirizmini ortaya çıxararaq tamaşaçısına çatdırmaq, fəlsəfi dərinliyinə varmaq məqsədi durur. Bəzən qarışıq çoxsaylı, bəzən isə minimal rəng çalarlarından istifadə etməklə rəssamın hadisə və mövcud canlı və ya cansız varlıqların tərənnümündə ifadə etməyə çalışdığı yeganə məqsəd onun fəlsəfəsinin dərk edilməsi, lirizminin, romantizminin hiss etdirilməsi, tamaşaçıda həyəcan yaratması olmuşdur ki, istedadlı rəssam bütün tablolarında buna fərqli dərəcələrlə nail ola bilmişdir.

**Ədəbiyyat:**

1. Azərbaycan incəsənəti. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. – Bakı: İşıq, 1992, 344 s.
2. Əliyev Z. Rəngkarlığımızın Əbdülxalıq zirvəsi // "KASPİ" qəz., 10 dekabr 2018.
3. Əliyev Ziyadxan, Xəlilov Aslan. Azərbaycan İncəsənəti. II-III hissələr. Bakı 2011, 142 s.
4. Əfəndiyev R.S. Azərbaycan incəsənəti. Bakı: Çaşıoğlu, 2001, 312 s.
5. Nəcəfov M. Tarla qəhrəmanları tablolarda // "Ədəbiyyat və incəsənət" qəz., 1980. 4, aprel.
6. Искусство Советского Азербайджана. Живопись, графика, скульптура. Под общ. редакцией Н.А. Езерской, К.Дж. Керимов, М.Н. Наджафова. М.: Советский художник. 1970. 206 с.

**Labor theme in the creativity of the Employed arts worker Abdulkhalyg Rzakuliyev**

**Summary**

The article is dedicated to the work of the honored art worker Abdul Khalig Rzaguliyev, who has a special role in the formation of modern Azerbaijani art. The analysis involved paintings by the artist on a rustic theme. It is noteworthy that among several works by Abdul Khalig devoted to the life of the collective farm, his paintings "Song of the Tractor Driver" (1957) and "Report on the Eve of the Congress" (1961) are especially successful. In this work, the author's free style and color perception are striking, which, on the one hand, creates a new image of the villagers, and on the other, vivid landscapes. These displays also demonstrate the artist's potential in creating a compelling and comprehensive composition. It is emphasized that the work of the artist of the sixties, including a collection of works on the labor theme "Collective Farmer Sevil Gadzhieva", "Collective Farm Life", "Collective Farm Girl", "Fishermen", "In the Field of Labor", "Lankaran Fishermen" and "Harvest Festival" Deliver aesthetic pleasure.

**Тема труда в творчестве Заслуженного деятеля искусств Абдулхалыга Рзакулиева**

**Резюме**

Статья посвящена творчеству заслуженного деятеля искусств Абдул Халига Рзагулиева, которому принадлежит особая роль в формировании современного азербайджанского искусства. К анализу привлечены картины художника на деревенскую тему. Примечательно, что среди нескольких работ Абдул Халига, посвященных жизни колхоза, особенно успешны его картины «Песня тракториста» (1957) и «Отчет накануне съезда» (1961). В этой работе поразительны свободный стиль и цветовосприятие автора, которое, с одной стороны, создает новый образ жителей деревни, а с другой - яркие пейзажи. Эти табло также демонстрируют потенциал художника в создании убедительной и всеобъемлющей композиции. Подчеркивается, что работы художника шестидесятых годов, включающие в себя коллекцию работ на трудовую тему «Колхозница Севиль Гаджиева», «Колхозная жизнь», «Колхозница», «Рыбаки», «На трудовом поприще», «Лянкяранские рыбаки» и «Праздник урожая», доставляют эстетическое удовольствие.

**Rəyçi: prof.S.Y.Sadıxova**